**Hər il 30 mindən çox azarkeşin canlı izlədiyi Formula 1 Qatar Airveys Azərbaycan Qran-prisi yenidən yarış həvəskarlarını tribunalarda qarşılayır. Bakı trası dar döngələri və uzun düz xətli yolları ilə məşhurdur. Bu, sürücülərə daha çox ötüşmə imkanları yaradır və yarışların daha dramatik keçməsinə səbəb olur. Azərbaycan Formula 1 yarışları ölkənin idman sahəsindəki inkişafını və beynəlxalq səviyyədəki müvəffəqiyyətini nümayiş etdirir. Bu, idman mədəniyyətinin artmasına və xalqın idmana olan marağının yüksəlməsinə kömək edir. Şəhərin dinamik və müasir atmosferi yarış həftəsonunda daha da canlanır. Müxtəlif sosial və mədəni tədbirlər, iştirakçılara və ziyarətçilərə əlavə əyləncə imkanları təqdim edir. Azərbaycan yarışların yüksək səviyyədə təşkil olunması və qonaqpərvərliyi ilə tanınır. Hər şeyin mükəmməl olması üçün geniş hazırlıq və diqqət göstərilir. Bu cəhətlər Formula 1 Azərbaycan Qran-prisinin beynəlxalq yarış təqvimindəki vacib mərhələlərdən biri olmasını təmin edir və hər il geniş bir auditoriyanın marağını cəlb edir.**














# Azərbaycanın Formula 1-ə növbəti ev sahibliyi uğurla davam edir




Ötən gün Bakının sayca səkkizinci dəfə ev sahibliyi etdiyi Formula 1 Azərbaycan Qran-prisinə start verilib. İlk gündə iki sərbəst yürüş keçirilib. Birinci sərbəst yürüş saat 13:30-da, ikincisi isə 17:00-da başlayıb. İlk test yürüşündə "Red Bull" pilotu Maks Ferstappen, ikincidə isə "Ferrari" pilotu Şarl Lekler ən yaxşı nəticə göstərib.

Birinci sərbəst yürüşdə ardıcıl qəzalar baş verib. "Ferrari" pilotu Şarl Leklerin idarə etdiyi bolid birinci sərbəst yürüşdə səddə çırpılıb. Həmçinin "Uilyams" pilotu Franko Kolapintonun idarə etdiyi bolid də baryerə dəyib. Hər iki qəzadan sonra qırmızı bayraq qaldırılıb və avtomobillər trasdan çıxarılıb. 20 döngə, 51 dövrədən ibarət olan Bakı treki ümumilikdə 306,049 km məsafəni əhatə edir.

2016-cı ildə Bakıda ilk dəfə keçirilən Formula 1 yarışında almaniyalı Niko Rozberq yarışı hamıdan tez tamamlayıb. Növbəti illərdə müvafiq olaraq Daniel Rikkardo (Avstraliya), Lyuis Hemilton (Böyük Britaniya), Valtteri Bottas (Finlandiya), Serxio Peres (Meksika) və Maks Ferstappen (Niderland) treki birinci pillədə başa vurublar. 2023-cü ildə isə Peres ikinci dəfə Bakıda qalib gəlib. 2020-ci ildə koronavirus pandemiyası səbəbindən paytaxtımızda yarış təşkil olunmayıb. Azərbaycan Qran-prisinə qədər "Red Bull"un niderlandlı pilotu Maks Ferstappen 303 xalla liderdir. "McLaren"dən Lando Norris 241 xalla ikinci, "Ferrari"dən Şarl Lekler 217 xalla üçüncü pillədə qərarlaşıb. Norrisin komanda yoldaşı Oskar Piastri 197 xalla dördüncü, "Ferrari"nin digər sürücüsü Karlos Sayns 184 xalla beşincidir. Konstruktorlar kubokunda "Red Bull" 446 xalla birinci, "McLaren" 438 xalla ikinci, "Ferrari" 407 xalla üçüncüdür.

Ötən il olduğu kimi, bu il də möhtəşəm Bakı yarışına II Qarabağ müharibəsində xalqımıza tarixi qələbəni bəxş edən qəhrəman şəhidlərimizin ailə üzvləri və qazilərimiz fəxri qonaq qismində dəvət olunublar. Onlar Formula 1 Qatar Airveys Azərbaycan Qran-prisini 3 gün ərzində canlı izləyə biləcəklər. Artıq 3-cü ildir ki, bu mötəşəm idman tədbirinə dəvət olunan fəxri qonaqlarımız builki yarışı "Azneft" və "Qız Qalası" tribunalarından izləyir. 44 günlük Vətən müharibəsi dövründə şücaət göstərmiş qəhrəman şəhidlərimizin ailə üzvlərini və qazilərimizi mötəbər idman yarışında, Bakı Şəhər Halqası azarkeşləri sırasında görmək qürurvericidir.

**Hindistanın Dehli şəhərindən ailəsi ilə birgə Bakıya Formula 1 yarışını izləmək üçün gələn Amit Şarma** paytaxtımızın gözəlliyindən heyrətlə bəhs etdi. Onun fikrincə, Bakı dünyanın ən möcüzəli şəhərlərindən biridir. Hər zaman Formula 1 yarışlarını televiziya vasitəsilə izlədiyini deyən qonaq bu dəfə Bakıda bolidləri və onları idarə edən pilotları canlı gördüyü üçün çox xoşbəxt olduğunu bildirdi.



**Honq-Konqdan olan Deyvid Çen və Patrisiya Çen** Bakının tarixi ilə öncədən maraqlandıqlarını, Qız qalası ilə bağlı əfsanəni duyduqlarını dilə gətirdilər. İçərişəhərin onların təsəvvüründəkindən daha möhtəşəm və sehrli məkan olduğunu bildirdilər. Formula ilə bağlı təəssüratlarını bölüşən qonaqlar möhtəşəm yarışlar izlədiklərini dedilər. Eyni zamanda, təşkilatçılar tərəfindən təhlükəsizlik tədbirlərinin görülməsinin də vacib məqam olduğunu vurğuladılar. Habelə, məlum oldu ki, sentyabrın 15-də keçiriləcək əsas Formula 1 yarışının qalibinin kim olacağı sualı onları çox düşündürür.



**Rusiya Federasiyasından olan Yelena Reperyaş** Bakıda olmağından məmnunluq ifadə etdi. Bu yarışların dünyada nömrə bir olduğunu deyən qonaq Azərbaycana artan marağın bunun bariz nümunəsi olduğuna diqqət çəkib. Formula 1 yarışlarının keçirildiyi istənilən ölkənin dərhal dünya səviyyəsində reytinqinin artdığını qeyd edən qonaq ilk gün olduğundan hansı komandanın daha güclü olduğunu deyə bilməyib. Pilotlar arasında ayrı-seçkilik etməkdən çəkindiyini bildirən həmsöhbətimiz bütün komandalara uğurlar arzu edib.



Formula 1 yarışları ilə bağlı Daxili İşlər Nazirliyi (DİN) Qran-pri zamanı azarkeş zonasına gətirilməsi qadağan olunan əşyaların siyahısını açıqlayıb. Həmin əşyaları bir daha xatırlatmaqda fayda var - yarış zonasına spirtli içkilərin, heyvanların (Fiziki məhdudiyyətli insanlara yardım göstərən xidməti heyvanlar istisna olmaqla), su qablarının və hər növ içki qablaşdırmaları (Uşaq üçün olan və 500 ml qədər termoslar istisna olmaqla), qidaların, içkilərin (Uşaq üçün olan istisna olmaqla), odlu silah, soyuq silah, digər qeyri-döyüş silah oxşarlarının, fişənglər, alovlandırıcılar, lazer işıqlarının, rolik, skeytbord, seqvey, velosiped, skuterlərin, soyuducu qutular (bərk və ya yumşaq), piknik üçün səbətlər, iri bel çantalarının, həmçinin təhqiredici bannerlər və əşyalar gətirmək qadağandır. Həmçinin, tutacağı 1 metrdən uzun olmayan bayraqlar, çətirlərin, peşəkar video çəkən cihazlar, obyektivi 30 sm-dən böyük olan fotokameraların, provokativ rəmzlər və şəkillər; dini, siyasi ifadələr və şüarların, narkotik maddələr, reseptsiz psixotrop dərmanlar, meqafon və buna oxşar cihazlar daxil olmaqla səs gücləndiriciləri və musiqi alətləri, oturacaqlar və əyləşmək üçün digər ləvazimatlar (Fiziki məhdudiyyətlilər istisna olmaqla), dronlar və digər uçan cihazlar, zəhərlər, eləcə də toksik və alışqan maddələrin azarkeş zonasına gətirilməsi qadağandır.

Sabah yekunlaşacaq Formula 1 Qatar Airveys Azərbaycan Qran-prisi ölkəmizin beynəlxalq tədbirlər zamanı təşkilatçılıq keyfiyyətinin ən üst səviyyədə olduğunu bir daha nümayiş etdirir. Noyabrda iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məqsədilə keçiriləcək COP29-dan əvvəl bu idman yarışına ev sahibliyi edən Bakı bir daha xarici qonaqlara öz mədəniyyətini nümayiş etdirdi. Ölkəmizə axın edən bütün turistlər şəhərin füsunkar mənzərəsini çox bəyəndiklərini bildirdilər. Bütün bunlar isə, şübhəsiz ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artmasına böyük təsir edir.

**Röya RÜSTƏMLİ,**
**Aygün İBRAHİMOVA,**
**Tacir SADIQOV,**
**"Respublika".**

